# tarixin izlərini daşıyan
# *Atəşgah və Yanardağ*



## Mündəricat:


| | |
|---|---|
| "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu | 6 |
| "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu | 20 |
| Ziyarətinizi planlaşdırın | 30 |


# salam



Zamanın süzgəcindən keçərək qədimdən günümüzə qədər öz orijinallığını qoruyub saxlayan Atəşgah və Yanardağ qoruqları bütün dövrlərdə bəşəriyyətin inkişafına aid izləri özündə saxlayaraq Azərbaycanın turizmində xüsusi dəyər kəsb edir.

AZƏRBAYCANIN XƏRİTƏSİ

# səyahətə *gedən yollar*



# atəşpərəstlər mirası

## *əsrlərin ziyarətgahı*



*Atəşgah*



ATƏŞGAH MƏBƏDİ

**Haqqında sirli-sehrli əfsanələr dolaşan Atəşgah məbədinin tarixi çox qədimlərə gedib çıxır. Bu gün Atəşgaha üz tutan hər kəs Azərbaycanın "Odlar Yurdu" adlandırılması və ölkəmizin alovlar diyarı kimi tanınmasının əsl səbəblərini öyrənir.**



Eramızın əvvəllərində Azərbaycan ərazisində yüzlərlə od yanır, istər möhtəşəm məbədlərdə, istərsə də sadə adamların səcdəgahlarında minlərlə insan oda sitayiş edirdi. Məhz buna görə Azərbaycanın "Odlar Yurdu" adlandırılması təsadüfi deyil. Ölkənin şimal-şərqində Abşeronda isə "sirli, sönməz alovlar" əbədi olaraq yanmaqda idi. Bir çox yerlərdə atəşpərəstlər bu daimi alovlar üzərində altar (mehrab) və od məbədi yaradaraq onları müdafiə edirdilər. Tarixçilərdən bəziləri hətta zərdüştlüyün elə qədim Abşeronda yarandığını iddia edirlər. Bu baxımdan Abşerondakı Atəşgah məbədinin tarixi kökləri çox qədimlərə, Azərbaycan dövlətçiliyinin yarandığı və ölkədə zərdüştlüyün hakim din olduğu dövrlərə - b.e.ə. X –IX əsrlərə aid edilir. Zərdüştlər həm göy cisimlərinə, həm də oda sitayiş etməklə öz müqəddəs allahlarına inanclarını təzahür etdirirdilər. Ümumiyyətlə, "Atəşgah məbədi" müxtəlif dövrlərdə zərdüştlər, hinduistlər və siqhlər tərəfindən ibadətgah kimi istifadə edilmiş alov məbədidir.









İslam dininin yayıldığı dövrlərdə Atəşgah məbədinin ziyarətçiləri azalsa da, orta əsrlərdə Azərbaycan ərazisindən keçən Böyük İpək Yolu sayəsində bir çox şərq ölkələri ilə ticarət əlaqələrinin yaranması səbəbindən zərdüştlər yenidən buralara üz tutublar. XVI-XVII əsrlərdə Azərbaycana çoxsaylı hindli tacirlər də üz tuturdular. Onlar öz ölkələrinə qayıdarkən burada qəribə və möcüzəvi hal - yerin altından çıxan oddan bəhs edirdilər. Beləliklə, orta əsrlər Azərbaycanı bir sıra ölkələrin diqqətini öz sərvətləri ilə yanaşı, həm də od məbədləri ilə cəlb edir və XVII əsrin əvvəlində Suraxanıya atəşpərəstlərin axını başlayır.

Atəşgah haqqında bir çox alim və səyyahlar öz əsərlərində bəhs etmişlər. 1683-cü ildə Azərbaycanda olmuş alman səyyahı **Engelberd Kempfer** "Bakı yarımadasının 7 möcüzəsi" adlı kitabında "XVII əsrin ortalarında onlar yenidən Atəşgahı inşa etməyə başlayırlar" deyə qeyd edir. XVIII əsrdə İngiltərənin görkəmli ictimai xadimi, səyyah və publisisti **Conas Hanuey** Bakı ətrafında ayrı-ayrı dövrlərdə tikilmiş müxtəlif tipli qədim od məbədlərinin tam komplekslərinin mövcudluğu haqqında yazırdı. Atəşgah, həmçinin **Villot**, **Lerch** kimi digər səyahətçilərin də diqqətini cəlb etmişdi.







*Atəşgah*

# ecazkar memarlıq
## *milli-tarixi guşələr*



*Atəşgah*





Yerli memarlıq ənənələrinin əsasında inşa olunmuş Atəşgah məbədi qədim od məbədlərinin cizgilərini özündə birləşdirməklə yanaşı, ümumi memarlıq xüsusiyyətlərinə görə sanki Azərbaycanın şəhər karvansaralarını xatırladır.

Atəşgah məbədi qapalı beşguşəli formadan, dişli divarlarla əhatələnmiş və mərkəzində yerləşən dördguşəli altar – alov məbədindən ibarət kompleksdir. Məbəd yer səthindən 4050 sm hündürlükdəki kürsü üzərində qurulmuşdur. Mərkəzi ibadətgah rotonda formasında inşa olunub, bura yalnız kahinlərin daxil ola biləcəyi ritual və ayinləri keçirmək üçün ən müqəddəs yerlərdən biridir. Alov altarı Azərbaycan ərazisində hələ Midiya dövründən yayılmış qədim altar inşası ənənələrini əks etdirir.

Alov altarını əhatə edən abidənin ətrafında dindarların yaşaması üçün hücrələr inşa edilmişdir. Giriş üzərində Şirvan-Abşeron memarlıq məktəbi üçün xarakterik olan qonaq otaqları – balaxana inşa edilmişdir. Balaxana kompleksdə əsas həcm-fəza kompozisiyası yaradır. Məbədin balaxanaya baxan hissəsində, tağın üstündə hind dilində məbədin 1713-cü ildə inşa olunduğu haqda məlumat verilir. Bu kitabələr məbədin hind tacir və ziyarətçilərinə məxsus olduğunu sübut edir. Hazırda məbədin daxilində 26 hücrə yerləşir və bu hücrələrin bəzilərində maraqlı ekspozisiyalar nümayiş etdirilir. Qoruq-muzeyin ekspozisiyasında fotolar, lövhələr, sxemlər, maketlər, qədim dövrlərə





aid müxtəlif əşyalar, silah nümunələri, dəbilqələr, qalxan və zirehdən hazırlanmış materiallar nümayiş etdirilir. Turistlərə açıq olan hücrələrdə zərdüştlərin ibadət etmə səhnəsi, kahinlərin qurban vermə mərasimi, mantra oxuyan atəşpərəstin səhnəsi nümayiş etdirilir. Xüsusi memarlıq üslubunda yaradılan muzeydə Bakı şəhəri və Abşeron rayonu ərazisində vaxtilə mövcud olan qədim yaşayış binalarını və abidələri əks etdirən guşələr yaradılmışdır. Əcdadlarımızın istifadə etdikləri məişət əşyaları və incəsənət nümunələri sizi həmin dövrlərə səyahətə aparacaq.









*Atəşgahda zərdüşt xalçası*

# ATƏŞGAHIN XƏRİTƏSİ



ATƏŞGAHIN XƏRİTƏSİ

- Atəşgah məbədi
- İnzibati bina
- Bilet satış məntəqəsi
- Tualet
- Atəşgah restoranı
- Suvenir mağazası
- Avtobus dayanacağı
- Parkinq
- Dəmiryolu
- Giriş

# **həm ziyarət** *həm ticarət*



*Atəşgah*



ƏYLƏNCƏ VƏ ASUDƏ VAXT

Atəşgah məbədini ziyarət etdikdən sonra Atəşgah restoranında milli mətbəx nümunələrini dadmadan buradan ayrılmaq olmaz. Həmçinin bir-birindən gözəl və hər zövqə uyğun yerli sənətkarların əl işləri arasından ürəyinizcə olanı seçmək üçün suvenir mağazalarına baş çəkməyi unutmayın.

### Atəşgah restoranı

Qoruq ərazisində yerləşən Atəşgah restoranı Azərbaycanın zəngin və ləziz mətbəxini sizə ən gözəl şəkildə təqdim edir. Restoranda milli mətbəx nümunələrindən Azərbaycan mətbəxinin şahı olan Şah plovu, ləziz quzu ətindən hazırlanan şabalıdlı Maça yeməyini və digər nəfis təamları da nuş edə bilərsiniz. Atəşgahda ən nəcib Azərbaycan ənənələrinə uyğun şam yeməyi milli mətbəximizdən zövq alaraq istirahət etməyinizə imkan verəcək. İnteryerində milli elementlərin üstünlük təşkil etdiyi restoran həm də dəbdəbəli ziyafətlərin keçirilməsi üçün idealdır.

*Atamoğlan Rzayev 1, Atəşgah məbədi*
***instagram.com/ateshgah_restaurant***



### Suvenir mağazaları

Məbəd ilə həmahəng inşa olunan əsas binada idarə, dəmirçi kürəsi, dəmirçi emalatxanası, həsir toxuma emalatxanaları fəaliyyət göstərir. Burada turistlər mis və çini qablar, taxta üzərində oyma naxışlı qablar, xalça, kəlağayı və digər xatirə əşyaları satılan mağazalarda ənənəvi alış-verişdən zövq ala bilər.



# Atəşgah ətrafında *tarixi-mədəni marşrut*

Əsrlər boyu müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu Azərbaycan multikulturalizm və tolerantlığın mərkəzi kimi dünyada tanınır. Atəşgahı ziyarət edən qonaqlar yaxınlıqda yerləşən tarixi məkanlardan ibarət mədəni-tarixi marşruta qoşularaq ölkəmizin multikultural ənənələri ilə daha yaxından tanış olmaq imkanı əldə edirlər.



## Yanardağ

Atəşgahı ziyarət edən turistlər yaxınlıqdakı Məmmədli kəndində, Atəşgahdan isə 22 kilometrlik məsafədə yerləşən Yanardağa da səfər edirlər. Yanardağda qeyri-adi təbiət möcüzəsi olan alov təpənin ətəyində 10 metrə qədər uzunluğa malik yerdə üzə çıxır. XIII əsrdə Marko Polonun xatirələrində təsvir edilmiş bu təbii alov Yanardağa gələn turistləri hələ də heyran qoyur. Yanardağ qoruğunun ərazisində yenidənqurma işləri həyata keçirilib, burada yaradılmış yeni və müasir muzeydə qoruq barədə geniş məlumat ala bilərsiniz.



## “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu

Atəşgahdan təxminən 25 km məsafədə yerləşən bu heyrətamiz muzeydə özünüzü eyni anda həm tunc dövründə, həm də orta əsrlərdə hiss edəcəksiniz. Burada qayaüstü rəsmlər, eramızdan əvvəl III-II minilliklərə aid tikililər, arxeoloji qazıntıların tapıntılarına tamaşa etmək və XIV əsrdə inşa edilmiş qalanın başına qalxıb Abşeron yarımadasına açılan möhtəşəm mənzərəni seyr etmək olar. Bundan savayı, interaktiv tura qoşularaq xalça toxuya, gildən qab düzəldə, qədim sobada çörək bişirə və əsl dəmirçi emalatxanasında işləyə bilərsiniz. “Qala” qoruğunda siz eksponatların bəzilərinə, həmçinin uşaqların çox sevəcəyi kiçik zooparkda quzu, keçi və dəvə balalarına da toxuna bilərsiniz.



QORUQ YAXINLIĞINDA GƏZMƏLİ-GÖRMƏLİ YERLƏR

## Mərdəkan qalası

Alovlar məskənindən sadəcə 20 dəqiqəlik məsafədə yerləşən Mərdəkan qalası bu tarixi marşrutun ən mühüm hissəsi olmaqla bərabər, həm də Abşeronun ən qədim qalalarından biridir. Əsrlərin yadigarı olan dördkünc Mərdəkan qalası XII əsrin ortalarında III Böyük Mənuçöhrün oğlu I Axsitanın düşmən üzərindəki parlaq qələbəsi şərəfinə ucaldılmışdır. Hündürlüyü 22 metr olan qala Ramana qalası kimi əzəmətli silueti və ehtişamlı görkəmi ilə hər kəsi heyrətləndirir. Qalaya çıxsanız, buradan Abşerona açılan gözəl panorama yaddaşınızdan silinməyəcək.

## Qoşaminarəli məscid

Atəşgah ətrafında mədəni-tarixi marşrutu Qoşaminarəli məscidi ziyarət edərək tamamlaya bilərsiniz. Ölkə əhəmiyyətli memarlıq abidəsi hesab edilən məscidi Bakının neft milyonçusu Murtuza Muxtarov 1908-ci ildə inşa etdirmişdir. Ona görə də, xalq arasında bu ibadət evinə “Murtuza Muxtarov məscidi” də deyirlər. Memarlıq üslubu ilə diqqət çəkən məscidin sağ və sol tərəflərində ərəbcə “Peyğəmbərlərə salam” ifadəsi yeganə olaraq burada ərəb dilində həkk olunub. M.Muxtarov məxsusi olaraq bu məscid üçün Türkiyənin İstanbul şəhərindən Qurani Kərim sifariş etdirmişdi. Deyilənə görə, həmin Quran 25 kq ağırlığındadır. İndi də Əmircan məscidində bu müqəddəs kitab əmanət kimi saxlanılır.

## “Usta-şagird” türbəsi

“Usta Şagird” kimi ədəbiyyata düşmüş türbə xalq arasında “Qubələ” kimi də tanınır ki, bu da qubbə, günbəzli tikili mənasında izah edilir. Rəvayətə görə, Suraxanıda bir bənna yaşayarmış. O, bir gənci illər uzunu şagird kimi işlədər və müstəqil işləməsinə imkan verməzmiş. Hər zaman şagird öz ustasından bu barədə müsaidə istərdisə də, usta “Səndə hələ bənna olmağa ləyaqət yoxdur, mən sənə ev tikmək ixtiyarı verə bilmirəm” deyərmiş. Rəvayətin sonu ağsaqqalların işə qarışması və ortaya yarışın çıxması ilə qurtarır. Nəticədə iki daxma tikilir, ustanın tikdiyi yıxılsa da, şagirdin tikdiyi daxma bu günə kimi qalmaqda davam edir. Atəşgaha ziyarət zamanı yolunuzu bu türbədən salsanız, türbə haqqında yerli sakinlərdən tərəfindən dinləmə şansınız olacaq.







# əbədi alovlanan *təbiət möcüzəsi*



*Yanardağ*



YANARDAĞ

Azərbaycanın ən çox ziyarət edilən turizm məkanları sırasında öndə gələn "Yanardağ möcüzəsi" dağın ətəyində yerin təkindən çıxan təbii qazın alovlanması nəticəsində yaranmış nadir təbiət hadisəsidir. Odur ki, torpağın dərinliklərində yatan və əsrlər boyunca bir an belə sönməyən, yamacın üstündəki hiddətli alovları seyr etməyə tələsin.

"Yanardağ" təbiət abidəsi yerin dərinliklərindəki mövcud neftli-qazlı çöküntü laylarında vulkanik-tektonik proseslərdən yaranan çatlar vasitəsilə səthə çıxan təbii qaz axınlarının alışıb yanması nəticəsində əmələ gəlib. Bakının rəmzi hesab olunan üç alov və dəniz simvolu da Yanardağın əks istiqamətində vaxtı ilə aktiv şəkildə daimi alovlanmış, lakin hal-hazırda sönmüş üç təpəyə əsasən qəbul edilib. Ərazidə aparılan geoloji tədqiqatlar, həmçinin orta əsrlərə aid tarixi mənbələr sübut edir ki, Bakı və ətrafında həm quru, həm də dəniz üzərində daimi yanan alovlar hələ qədim dövrlərdən bəri müşahidə olunur. Hündürlüyü 10 metrə çatan alovun unikallığı onun heç vaxt sönməməsindədir. Bu səbəbdən, Yanardağı həm də "əbədi məşəl" adlandırırlar. Təsadüfi deyil ki, Yanardağ və Abşeronun digər yerləri ilkin dövrlərdən etibarən atəşpərəstlik və zərdüştlük dininə ibadət edənlər tərəfindən müqəddəs hesab edilən ərazilər olublar. Yanardağ və ətrafındakı ərazilər son Paleolit dövründən etibarən insanlar tərəfindən sıx məskunlaşmış ərazilər olub. Yanardağ ətrafında tapılmış qaval daşı və digər qədim maddi-mədəniyyət nümunələri buna əyani sübutdur.

Yanardağın nə vaxtdan bəri alışması heç kəsə məlum olmasa da, erkən orta əsrlər dövrünü işıqlandıran səyyahların əsərlərində onun haqqında məlumatlara rast gəlinir. V əsrin əvvəllərində yaşamış bizanslı tarixçi və diplomat **Paniyalı Prisk** Qafqaz Albaniyası Bakısını təsvir edərkən sualtı qayadan qalxan oddan söz açaraq yazır: "Kaspi dəniz sahillərində sualtı qayalar mövcuddur ki, buradan gecə-gündüz od çıxır. Odun şöləsi ay işığında daha füsunkar görüntü yaradaraq ətraf sahil torpaqları öz işığında görünən edir". XV əsrdə yaşamış Azərbaycanlı coğrafiyaşünas **Əbdürrəşid Saleh ibn-Nuri əl-Bakuvi** "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri" adlı əsərində qeyd edir ki, Bakı kəndi yaxınlığında sönməyən atəş var və onun yaxınlığında palçıq vulkanları yerləşir.



Bu təbiət möcüzəsini görmək üçün ilin dörd fəslində dünyanın dörd bir yanından gələn ziyarətçilər "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna üz tuturlar. Qoruq Yanardağı və tarixin bütün dövrlərinin izlərini özündə daşıyann təbii və tarixi abidələri kəşf etmək üçün rahat ərazidə yerləşir.

Azərbaycanda nadir təbii abidələrdən biri olan "Yanardağ" abidəsinin ərazisi Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2007-ci ildə Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir.

"Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu Abşeron rayonunun Məmmədli kəndinin qərbində, Bakı şəhərinin mərkəzindən 27 km, kənd mərkəzindən isə təqribən 2 km məsafədə, Məmmədli-Digah şose yolunun solunda yerləşir və 27 hektar ərazini əhatə edir.

Qoruğun tərkibində "Yanardağ" – əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə "Qurd yuvası" adlanan ilkin ibtidai icma dövrünə aid mağara, çoxəsrlik tarixə malik və qədim sandukələr ilə zəngin iki qəbiristanlıq, kükürdlü su qaynayan müalicəvi bulaqlar, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, yerli əhali tərəfindən müqəddəs hesab edilən qara rəngli daşların qorunduğu Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, füsunkar görüntüyə malik Qırməki vadisi, qədim köçəri türk xalqlarının dəfnetmə adətlərini əks etdirən kurqan – təpəvari qəbr abidəsi aiddir. Qoruğa, həmçinin 1918-ci ildə Bakıya gələn Osmanlı qoşunlarının səngərləri də daxildir.










Yanardağ






YANARDAĞIN XƏRİTƏSİ

1. Bilet satışı və məlumat məntəqəsi, Tualet
2. Muzey
3. Kafe and suvenir mağazası
4. Elektrik skuterlərin kirayəsi
5. Uşaq oyun meydançası
6. Kromleks daş sərgisi
7. Amfiteatr
8. Yanardağ
9. Tualet
10. İnzibati bina

**Aşağıdakı məkanları ziyarət etmək üçün bələdçi sifariş etməyiniz tövsiyə olunur:**

11. Qırməki vadisinə müşahidə nöqtəsi
12. Palçıq vulkanı
13. Osmanlı səngərləri
14. Kükürdlü bulaqlar

# təbiət qoruğunda *gəzintiyə çıxın*




*Yanardağ*



ƏYLƏNCƏ VƏ ASUDƏ VAXT

Qoruqda informativ ekskursiya zamanı xeyli faydalı məlumat alıb yorulmusunuzsa, alış-veriş edib kafedə dincələrək yorğunluğunuzu çıxara bilərsiniz. Hətta bir qədər adrenalin dolu anlar da sizi gözləyir.



### Ənənəvi alış-veriş

Yanardağ suvenir mağazasında keramika, şüşə, taxta və parçadan hazırlanmış əl işi suvenirləri həm özünüz, həm də doğmalarınız üçün əla seçim olacaq. Hədiyyəlik əşyaların hazırlanmasında Yanardağın ruhunu və qoruğun ümumi məzmununu əks etdirən ornamentlərdən istifadə olunub.



### Kafe

"Yanardağ" qoruğunda müasir dizayna malik kafe də fəaliyyət göstərir. Kafenin divarlarında gənc yerli sənətkarların əsərləri təsvir olunur. Kafedən Yanardağa və amfiteatra gözəl mənzərə açılır.

### Elektrikli skuter ilə gəzinti

"Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun ərazisində elektrikli skuterlərdə qeyri-adi landşaftda adrenalin dolu gəzinti sizi gözləyir. Ətrafdakı palçıq vulkanını, mağaranı, kükürdlü su mənbəyini bu müasir və təhlükəsiz skuterlərdə asanlıqla kəşf edə bilərsiniz. Təhlükəsizliyinizi artırmaq üçün dəbilqə, diz və dirsək qoruyucuları verilir və sığorta sənədi imzalanır. Həmin ərazidə elektrik skuterlərinin yarışması üçün xüsusi trek də yaradılıb. Bundan əlavə, turistlər ox və nizə atmağı da sınaya bilər.



# Yanardağın *sirli məkanları*

Qoruqda 20-dən artıq maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Gəzinti zamanı mağaralardan tutmuş müalicəvi kükürdlü bulaqlara, qədim kurqanlara və palçıq vulkanlarına qədər çoxsaylı tarixi abidələrə rast gəlmək olar.



**Qırməki vadisi**

Qoruq ərazisindəki maraq doğuran yerlərdən biri də Qırməki vadisidir. Qırməki vadisində qədimlərdə neft təbii yolla özü-özünə yerin səthinə çıxıb qum və palçıqla qarışaraq bərkiyib qalırdı. Sonra yerli əhali bu qarışıqdan qır bişirib evlərin dam örtüyünü onunla örtərdi. Elə vadinin adı da buradan götürülüb – “Qırməki”, yəni “qır məkanı” mənasına gəlir. Qırməki həm də təbiətin nadir bioloji muzeylərindən biri hesab olunur. Vadinin ərazisində olan ilkin neft quyularının qalıqları bura gələn turistlərin diqqətini hər zaman özünə cəlb edir. Bu, XIX əsrin əvvəllərində neftin əl üsulu ilə çıxarılması üçün qazılmış quyulardır. İndi onlardan bəziləri vadi ərazisində hələ də qalmaqdadır. Bundan başqa, vadi ərazisində “Kasıb piri” və XIII əsrə aid edilən sərdabə, kənd təsərrüfatı mallarının saxlanılması üçün anbar-quyu və qədim yaşayış evinin qalıqları da mövcuddur.





**Palçıq vulkanları**

Azərbaycan 700-ə yaxın palçıq vulkanının vətəni hesab olunur və bu vulkanlardan ikisi Yanardağın payına düşür. Yanardağ ərazisindən 2 km məsafədə, Qırməki vadisində bu gün də aktiv palçıq vulkanları fəaliyyət göstərir ki, bu vulkanlar həm təbiət hadisəsi, həm də elmi baxımdan yerin dərinliklərində baş verən prosesləri öyrənmək üçün çox maraqlıdır. Palçıq vulkanları, həmçinin neft-qaz yataqlarının müəyyən edilməsində xərcsiz başa gələn kəşfiyyat quyusu rolunu oynayır. Vadidəki palçıq vulkanları eyni zamanda əsəb sistemi, dəri və oynaq xəstəlikləri və bir sıra digər xəstəliklərin müalicəsində uğurla istifadə olunur.



**Yanardağ muzeyi**

“Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda fəaliyyət göstərən müasir muzeydə eksponatların, 3D maketlərin, videoinstallyasiyaların və videoçarxların ahəngi bu unikal yer ilə daha ətraflı tanış olmaq imkanı yaradır. Buradakı eksponatlar – qab-qacaq, məişət əşyaları və əmək alətləri erkən orta əsrlərə və ya XVII-XVIII əsrlərə aiddir. Burada Şirvanşahlar dövlətinin keçmiş paytaxtı Şamaxıdan tapılan saxsı qabları da görmək olar. Muzeydəki “İşıq və kölgə oyunu”, məşhur azərbaycanlı rəssam Hüseyn Haqverdiyevin “Unudulmuş əcdadların kölgələri” adlı müasir installyasiyası “Yanardağ” turizm kompleksinin ekspozisiyasının mühüm tərkib hissəsidir. İnstallyasiya alov dilləri ilə işıqlandırılan taxta kompozisiyanı təcəssüm etdirirək elə hissiyyat yaradır ki, sanki qədim insanlar əl-ələ tutub oda sitayişə həsr olunmuş gizli bir ayini yerinə yetirirlər. Ziyarətçilərə, həmçinin Atəşgah, palçıq vulkanları və Yanardağın geoloji laylarının kəsiyi kimi maraqlı maketlər təqdim edilir.



**Kromleks daş sərgisi**

Yanardağ və ətrafındakı ərazilər son Paleolit dövründən etibarən insanlar tərəfindən sıx məskunlaşmış ərazilər olub. Yanardağ ətrafında tapılmış qaval daşı və digər qədim maddi-mədəniyyət nümunələri buna əyani sübutdur. Bu daşlar hazırda açıq səma altında yaradılan Yanardağdakı Kromleks daş sərgisində nümayiş etdirilir. Bu sərgidə qədim su qabları, əl dəyirmanları, üzüm sıxmaq üçün formalar, heyvanların suvarılması və yemlənməsi üçün istifadə olunan daş axur kimi maraqlı eksponatlar toplanılıb. Bu eksponatlarla tanışlıq qədim dövrlərin həyat və məişət mənzərəsini canlandırmağa imkan verir. Kromleksin mərkəzində olan qaval daşları isə burada qəbilə insanlarının ayinlər yerinə yetirdiyini göstərir. Qaval daşı ən qədim musiqi alətlərindən biri hesab olunur. Əhəng daşından əmələ gəlməsi və tərkibində çınqılların yaratdığı boşluqlar səbəbindən qaval daşa vurduqda ondan səs çıxır.



# sönməz alovlara *aparan yollar*

"Ateşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna getmək üçün müxtəlif marşrut və vasitələrdən birini seçməklə atəşpərəstlərin müqəddəs ibadətgahını ziyarət edə bilərsiniz.

**Biletlər**

Bileti həm onlayn şəkildə **iticket.az** veb-saytından qeydiyyatdan keçərək əldə etmək, həm də qoruğun kassalarından almaq mümkündür.

**Nəqliyyat**

Bakının mərkəzindən Atəşgaha avtomobil ilə
Heydər Əliyev prospekti ilə düz gedib Aeroport şosesi ilə davam edin, sonra İlqar Məmmədov küçəsinə gedən yol ayrıcından sağa-Suraxanı kəndinə dönün. Atəşgah məbədinə çatmaq üçün nişanları izləməyə davam edin.

İctimai nəqliyyat vasitələri ilə
Qara Qarayev metro stansiyasından 191, 113, 213 nömrəli marş-rut xətləri, Koroğlu metro stansiyasından 184 nömrəli marşrut xətti, Həzi Aslanov metro stansiyasından 104 nömrəli marşrut xətti üzrə hər gün avtobuslar qoruq istiqamətində hərəkət edir.

Heydər Əliyev adına hava limanından Atəşgaha avtomobil ilə
Heydər Əliyev adına hava limanından çıxdıqdan sonra Bakının mərkəzinə doğru düz davam edin. İlk çıxışdan sola, sonra isə sağa-Suraxanı kəndinə dönün. Atəşgah məbədinə çatmaq üçün nişanları izləməyə davam edin.

**Ətraflı məlumat üçün:**

Hər gün (iş saatları yay və qış rejiminə görə dəyişir)
Atamoğlan Rzayev 1

**ateshgahtemple.az**
Ateshgah.qorugu
ateshgah_temple





# yanan dağa *aparan yollar*

Abşeron rayonunda yerləşən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna müxtəlif nəqliyyat vasitələri ilə getmək mümkündür.

**Biletlər**

Bileti həm onlayn şəkildə **iticket.az** veb-saytından qeydiyyatdan keçərək əldə etmək, həm də qoruğun kassalarından almaq mümkündür.

**Nəqliyyat**

Bakının mərkəzindən Yanardağa avtomobil ilə
Heydər Əliyev prospekti ilə düz gedib Zabrat şosesinə çıxıb davam edirsiniz, oradan da sola Məmmmədli kəndinə dönüb Yanardağa çatırsınız.

İctimai nəqliyyat vasitələri ilə
Azadlıq prospekti metro stansiyasından 147 saylı marşrut xətti, Koroğlu metro stansiyasından 217 saylı marşrut xətti üzrə avtobuslar hər gün qoruq istiqamətində hərəkət edir.

Heydər Əliyev adına hava limanından Yanardağa avtomobil ilə
Heydər Əliyev adına hava limanından çıxıb düz davam etdikdən sonra sağa Zabrat şösesinə dönürsünüz və oradan da sola Məmmədli kəndinə dönüb Yanardağa çatırsınız.

**Ətraflı məlumat üçün:**

Hər gün: 10.00 - 19.00
Ünvan: Məmmədli kəndi, Abşeron rayonu

**yanardag.az**
Yanardag.qorugu
yanardag.qorugu

azerbaijan.travel

ExperienceAZE

experienceazerbaijan

podcast.azerbaijan.travel

Broşuru yükləmək üçün QR kodu skan edin

Tiraj: 000
İyun 2023

Nəşr::
Azərbaycan Turizm Bürosu
Üzeyir Hacıbəyov küçəsi 134,
Bakı AZ1010, Azərbaycan